# SAMUX: UĞURLU İNKİŞAF TEMPİ





Regionun qabaqcıl aqrar rayonlarından olan Samuxda 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları ürəkaçan olmuşdur. Heydər Əliyev mərkəzində rayon icra hakimiyyətinin, YAP Rayon Təşkilatı nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərləri və geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə 2015-ci ilin birinci rübünün yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilmişdir.

**Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** respublikada gedən sürətli inkişafdan, rayonda aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrdən ətraflı çıxış edərək, qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 11 ildə həyata keçirilən düşünülmüş, məqsədyönlü siyasət nəticəsində ölkəmiz dünya birliyinin layiqli üzvünə, davamlı inkişaf edən və dayanıqlı iqtisadiyyata malik bir ölkəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dünya və ölkə iqtisadiyyatında baş verən prosesləri təhlil etdi. Dövlət başçısı giriş və yekun nitqlərində hadisələrə obyektiv və düzgün qiymət verərək, manatın məzənnəsinin dəyişməsi fonunda ölkənin sosial-iqtisadi sahələrindəki mövcud vəziyyət, qarşıda duran vəzifələr barədə geniş məlumat verdi.

Dövlət Proqramının uğurlu icrası nəticəsində regionlarda əvvəllər olduğu kimi, birinci rübdə də əhalinin məşğulluğu sahəsində müsbət meyillər müşahidə olunmuşdur. Rüb ərzində 30 minə yaxın iş yeri açılmışdır ki, onlardan da 25 mini daimi iş yeridir. Əvvəlki illərdə olduğu kimi, 2015-ci il də Samux rayonu üçün uğurla başlamış, cari ilin birinci rübü ərzində rayon iqtisadiyyatının inkişafı istiqamətində müəyyən tədbirlər və geniş tikinti-quruculuq, abadlıq işləri həyata keçirilmişdir. Rüb ərzində bütün sahələrdə müsbət nəticələr əldə olunmuşdur. 2015-ci ilin birinci rübünün yekunlarının əsas iqtisadi göstəricilərinin təhlili bunu deməyə əsas verir. Belə ki, birinci rübdə rayon üzrə ümumi məhsul buraxılışının həcmi təqribən 16,2 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 1,4 faiz çoxdur. Cari ilin ilk rübündə, ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının həcmi 3,8 faiz artaraq 6,7 milyon manat, sənaye məhsulunun həcmi 9,4 faiz artaraq 1,3 milyon manat təşkil etmişdir. Hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 0,4 faiz, əhalinin gəlirləri 0,7 faiz, orta aylıq əməkhaqqı 0,8 faiz artmışdır.

Əhalinin məşğulluğu yenə də diqqət mərkəzində saxlanılmış və sahibkarlara yaradılan münbit şəraitin nəticəsidir ki, hesabat dövründə 241-i daimi olmaqla 256 yeni iş yeri yaradılmışdır. Yaradılmış yeni iş yerlərindən 89-u Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon sahibkarlarına 40 layihə üzrə verdiyi 524,8 min manat güzəştli kreditin hesabınadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2014-cü il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın yerinə yetirilməsi istiqamətində rayonda müəyyən işlər görülmüşdür.

Belə ki, rüb ərzində inşasına keçən il başlanmış hər biri 100 yerlik iki körpələr evi-uşaq bağçasında işlər tam başa çatdırılmış, hər iki bağça bütün lazımi inventar və avadanlıqlarla təmin olunaraq, istifadəyə tam hazır vəziyyətə gətirilmişdir. Bağçalardan birinin yerləşdiyi, uzunluğu 1,5 km olan Kür küçəsində yenidənqurma işləri aparılmışdır. Küçənin hər iki tərəfində 800 metr bordür düzülərək səki salınmışdır. Evlərin fasadları və hasarlar tam suvanmışdır. Burada 800 kvadratmetr hörgü, 1822 kvadratmetr suvaq işi aparılmış, küçəyə yeni asfalt örtüyü salınmışdır.

2015-ci ilin birinci rübü ərzində bütün istiqamətlərdə yolların çiyin hissələri avtoqreyderlə planа salınmış, keçid boruların giriş-çıxış hissələri təmizlənmiş, qırılmış siqnal dirəkləri yenisi ilə əvəz edilmişdir. Gəncə-Samux, Samux-Çobanabdallı-İnstitut, Samux-Yenikənd istiqamətində avtomobil yollarında 1870 kvadratmetr sahədə asfalt işləri yerinə yetirilmiş, Gəncə-Samux avtomobil yolunda 2 ədəd yol nişanı quraşdırılmışdır. Eyni zamanda Qırmız-Samux, Samux-Yenikənd-Poylu, Qovlarsarı-Qaraarx avtomobil yollarında cari təmir işləri aparılmışdır.

Rayon iqtisadiyyatının inkişafında da mühüm rol oynayan sahibkarlığın inkişafına rayonda xüsusi diqqət verilir və təsadüfi deyildir ki, rüb ərzində 149 yeni sahibkarlıq subyekti fəaliyyətə başlamışdır ki, onlardan da 3-ü hüquqi şəxslərdir. Hazırda ümumi məhsul buraxılışının həcmində qeyri-dövlət sektorunun payı 82,6 faiz təşkil edir. Rüb ərzində Sarıqamış kəndi ərazisində 2500 başlıq iribuynuzlu mal-qara heyvandarlıq kompleksində işlər davam etdirilmişdir. Hazırda kompleksdə saxlanılan iribuynuzlu cins mal-qaranın baş sayı 2 minə çatdırılmışdır.

İqtisadiyyatının əsasını aqrar sektor təşkil edən rayonda cari ildə sahələrdən yüksək məhsul əldə etmək üçün lazımı tədbirlər həyata keçirilmişdir. 2015-ci ilin məhsulu üçün 9544 hektar sahədə payızlıq səpinlər aparılmışdır. Aparılmış səpinin 4742 hektarı buğda, 4346 hektarı dən üçün arpa, 456 hektarı isə xəsil məqsədi ilə əkilmişdir. 1379 hektar sahədə isə yazlıq bitkilərin səpini aparılmışdır. Onlardan 174 hektarı kartof, 251 hektarı tərəvəz, 531 hektar sahədə günəbaxan, 310 hektarı çoxillik otlar, 113 hektar şəkər çuğunduru və s. olmuşdur.

2015-ci ilin 01 aprel tarixinə iribuynuzlu mal-qaranın sayı 20938 baş olmuşdur. Bundan ana inək və camışların sayı 10161 baş təşkil edir. Qoyun və keçilərin sayı 167315 baş olmuşdur. Birinci rübdə 1411 ton diri çəkidə ət, 4659 ton süd, 2235 min ədəd yumurta istehsal olunmuşdur.

Nazirlər Kabinetinin "Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılmasına dair" müvafiq qərarına əsasən 885 nəfər buğda istehsalçısına 94552 manat məbləğində yardım Kapital Bankın rayon filialı tərəfindən plastik kartlarla ödənilmişdir. Məhsul istehsalçılarına rayon "Aqroservis" filialı tərəfindən güzəştli şərtlərlə 17 istehsalçıya 19,1 ton gübrə satılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2015-ci il fevral ayının 3-dən ölkədə çox mühüm bir kampaniyaya — əhalinin kütləvi müayinəsinə başlanmışdır. Aprel ayının 10-na olan məlumata əsasən rayon əhalisinin 34830 nəfəri və ya 62,0 faizi sorğu əsasında tibbi müayinədən keçmişdir. Müayinə olunanların 2576 nəfəri və ya 7,4 faizi ambulator müalicəyə cəlb olunmuşdur. Onlardan 559 nəfərinin daha dərindən müayinəyə ehtiyacı olmuşdur. 78 nəfər isə daha ətraflı müayinə olunmaq üçün respublikamızın ixtisaslaşmış xəstəxanalarına göndərilmişdir. Rayon əhalisinin müayinəsi davam etdirilir və may ayının 1-dək tam başa çatacaqdır.

Cari ilin fevral ayından başlayaraq respublikamızın bütün bölgələrində olduğu kimi, Samux Rayon Heydər Əliyev Mərkəzində də rayonun ümumtəhsil məktəblərinin 11-ci sinif şagirdləri üçün ulu öndər Heydər Əliyevin irsinin öyrənilməsi ilə bağlı tədris kursları təşkil edilmişdir. Bununla bağlı tədris cədvəli tərtib edilmiş, dərslərin cədvəl üzrə aparılması təmin edilmişdir. Yanvar-mart aylarında 11-ci sinifdə oxuyan 558 şagirddən 511 nəfəri tədris kurslarına cəlb edilmişdir. Tədris kursları davam etdirilir.

Ölkə başçısı tərəfindən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi də qarşımızda yeni vəzifələr qoyur. Rayonda 5 min toxumçuluq və heyvandarlıq kompleksinin yaradılması istiqamətində işlər aparılır.

Çıxışının sonununda rayon rəhbəri tam əminliklə bildirdi ki, Samux Rayon İcra Hakimiyyəti 2015-ci ildə bütün gücünü səfərbər edərək ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yerli icra hakimiyyətləri qarşısında qoyulmuş vəzifələrin icrasını layiqincə yerinə yetirəcək, uğurlu nəticələrə imza atacaqdır.

Çıxış edənlərdən Rayon Təhsil Şöbəsinin müdiri Gülağa Hüseynov, Rayon Mərkəzi Xəstəxanasının baş həkimi İlham Həsənov, Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov və başqaları respublikada gedən sürətli və innovativ inkişafdan, rayonda aparılan geniş abadlıq-quruculuq işlərindən, infrastrukturun yeniləşməsindən, vətəndaşların sosial və məişət şəraitinin yaxşılaşmasından, maddi rifah halının yüksəlişindən söhbət açdılar.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**